Ölüləri söyməyin, çünki onlar artıq dünyada ikən etdikləri əməllərə qovuşublar

Aişədən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Ölüləri söyməyin, çünki onlar artıq dünyada ikən etdikləri əməllərə qovuşublar".

[Səhih] [Əl-Buxari rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, ölüləri söymək, onların şərəf-ləyaqətləri barədə nalayiq sözlər demək haram və pis əxlaqdandır, çünki onlar dünyada ikən etdikləri istər saleh, istərsə də pis əməllərə artıq qovuşublar və bu söyüş onlara çatmır, lakin sağ olan insanlara əziyyət verir.

http://www.sunnah.global/hadeeth/az/show/5364